***TƏDQİQAT İŞLƏRİ ÜÇÜN ÇAĞIRIŞ***

***"Ali Təhsildə Maliyyə və Sahibkarlıq Fəaliyyətləri: Problemlər və Perspektivlər"***

***Təhsil Konfransı 2017***

ABŞ Təhsilli Azərbaycanlı Məzunlar Birliyi təhsil tədqiqatçılarını "Ali Təhsildə Maliyyə və Sahibkarlıq Fəaliyyətləri: Problemlər və Perspektivlər" mövzusunda öz təkliflərini təqdim etməyə dəvət edir.

**Vacib tarixlər**

**Konfrans tarixi**: **29-30 Aprel 2017**
**Referatların qəbulu üçün son tarix**: **5 Yanvar 2017**
**Tədqiqat işlərinin qəbulu üçün son tarix**: **15 Fevral 2017**
**Qeydiyyat üçün son tarix:** **1 Mart 2017**

**Konfransın təfsilatı**

**Təşkilatçılar**: ABŞ Təhsilli Azərbaycanlı Məzunlar Birliyi, ADA Universiteti, Azərbaycan Texnologiya Universiteti (Gəncə)
**Partnyorlar:** Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dillər Universitetinin Bakı Amerika Mərkəzi
**İstifadə olunan dil**: Azərbaycan dili (eyni zamanda İngilis və Rus dillərinə tərcümə)

Ali Təhsil qlobal proseslərə qoşulma və qlobal istehsal şəbəkəsinə inteqrasiya prosesində mühüm rol oynamışdır. Biliyə əsaslanan iqtisadiyyata keçiş yüksək ixtisaslı əmək, innovasiya və tədqiqata olan ehtiyacı artırmışdır. Eyni zamanda son qlobal maliyyə böhranı bütün

iqtisadiyyatlara müxtəlif dərəcədə ziyan vurmuşdur. Bu isə öz növbəsində təhsildə, xüsusilə də ali təhsilə ayrılan dövlət vəsaitinin azalmasıyla nəticələndi. Təzyiqlə müəyyənləşmiş təhsil büdcəsinin nəticəsi olaraq ali təhsil institutları öyrənmə və araşdırmanın keyfiyyətini saxlamaq/yaxşılaşdırmaq, həmçinin daha az resursla ali təhsilə çıxış üçün artan tələbə cavab verməkdə çətinliklərlə üzləşməyə başladılar.

**2017 Təhsil Konfransının məqsədi nədir?**

Konfransın məqsədi dörd müxtəlif sahənin təmsilçilərinin: təhsil siyasətçiləri, tədqiqatçılar, QHT-lər və sahibkarların cəlbi ilə öyrənmə və tədqiqat keyfiyyətini yaxşılaşdırmaq və ali təhsilə çıxışı genişləndirmək üçün təhsili maliyyələşdirməyin alternativ yollarını müzakirə etməkdir.

Nümayiş müddətində tədqiqatçılar bu məsələ ilə bağlı olan fikirlərini nümayiş etdirəcəklər. Müzakirə panelinə dörd sahənin təmsilçiləri cəlb olunacaq: təhsil siyasətçilər, tədqiqatçılar, QHTlər və sahibkarlar. Panel üzvləri nümayiş müddətində təqdim olunan tədqiqat işlərində irəli sürülən fikirlər və nəticələri haqqında danışacaqlar.

Dörd əsas panel və seminarlar konfransın aktual mövzularını əhatə edir və buna əsasən Qafqaz (xüsusilə Gürcüstan və Azərbaycan) və AB üzvü ölkələrdəki (xüsusilə Şərqi Avropa) təhsil siyasəti və institutlarının səviyyəsi haqqında aparılan debatlar daxildir.

*Panel Müzakirələri*

**1. Təhsildə səmərəlilik və dövlət xərcləri**

Bu paneldə müxtəlif sistemlərdə səmərəliliyin əldə olunması barədə məlumatların verilməsi nəzərdə tutulmuşdur. Ali təhsil müəssisələrində gəlirin diversifikasiyası necə aparılır? Hazırki xərclərimiz nədir və nə üçün xərcləyirik?

**2. Ali təhsilə çıxışın maliyyələşdirilməsi**

Bu seminar müxtəlif əhali qruplarından olan tələbələrin keyfiyyətli təhsildən eyni səviyyədə yararlanmasına imkan verəcək fərqli siyasət mexanizmini təhlil etmək məqsədi daşıyır. Təhsil hər kəs üçün nə deməkdir? Biliyə əsaslanan iqtisadiyyatın iş xüsusiyyətləri üçün tələbi nədir?

**3. Təhsildə idarəetmə, sahibkarlıq və texnologiya**

Bu paneldə sürətli dəyişən bilikli iqtisadiyyatda unversitetlərin daxili gücü, xarici imkanları və üzləşdikləri kənar təhlükələr təhlil olunur. Panel iştirakçıları öz təcrübələrini və ali təhsil müəssisələrinin uğur qazanmasında rol oynayan faktorlar barədə biliklərini paylaşacaqlar. Hökumət qurumlarının atdığı vacib addımlar nələrdir? Yaxud ölkənin və universitetin daha yaxşı bir gələcək hədəfinə çatmağı üçün hansı iqtisadi problemlərin öhdəsindən gəlinməlidir?

## 4. Təhsildə tədqiqat və innovasiyaların maliyyələşdirilməsi

Bu panel ali təhsil müəssisələrinə yeni ideyalar gətirmək, innovasiya və araşdırmaları dəstəkləmək üçün ən əlverişli üsulların təhlil olunması məqsədi daşıyır. Şəxsi maliyyələşmə və dövlət vəsaitlərinin güclü və zəif cəhətləri hansılardır? Bu mühiti necə qurmaq olar? Həmin mühiti necə yaratmaq olar? Bu məqsədə çatmaq üçün hansı təhsil siyasəti və mexanizmlərdən istifadə etmək lazımdır?

Konfrans AAA (ABŞ-Təhsilli Azərbaycanlı Məzunlar Birliyi), ADA Universiteti və Azərbaycan Texnologiya Universiteti tərəfindən və onların birgə əməkdaşlığı ilə təşkil olunur.

### Kimlər müraciət edə bilər?

- Xaricdə müxtəlif proqramlar üzrə təhsil almış və tədqiqat işini yaxud təhsil siyasətinin təhlilinin təqdim etməkdə maraqlı məzunlar
- Təhsil sahəsində müstəqil tədqiqatçılar
- Həm tədqiqat, həm də praktikaya cəlb olunmuş təhsil mütəxəssisləri
- Universitet professorları

### Beynəlxalq Ərizəçilər və İştirakçılar

Konfrans beynəlxalq ərizəçilər və iştirakçılar üçün də açıqdır. Qəbul olunmuş iştirakçıların səyahət xərcləri və qonaqlaması təşkilatçılar tərəfindən qarşılanır.

Qeyd edək ki, Konfransda iştirak etməkdə digər maraqlı şəxslərin səyahət xərcləri və qonaqlaması təşkilatçılar tərəfindən qarşılanmır və bu qrup iştirakçılardan heç bir iştirakçı haqqı tələb olunmur.

### Qeydiyyat

Əgər siz konfransda iştirak etməyi planlaşdırırsınızsa qeydiyyat formasını təqdim etməlisiniz. Formanı burada tapa bilərsiniz: Qeydiyyat Forması

### Təqdimat formatları

- Poster təqdimatı (Azərbaycanca)
- Müəllimin rəhbərliyi ilə elmi araşdırma (İngiliscə/Azərbaycanca)
- Panel müzakirəsi (İngiliscə/Azərbaycanca)
- Təlim (İngiliscə/Azərbaycanca)

### Tövsiyyələr

- Sizdən təcrübənizə və ölkənizdəki mövcud vəziyyəti anlamağınıza əsaslanan tədqiqat işlərini təqdim etməyiniz gözlənilir;

- Hər bir tədqiqat işi təhsil sahəsində islahatlar və dəyişikliklər üçün tövsiyyələr daxil olmaqla təhsil siyasəti üzrə nəticələrin təsirini aydın izah etməlidir;
- Tədqiqat layihələrində beynəlxalq elmi məqalələrə istinad edilməlidir. Bütün elektron mənbələr (EBSCO, JSTOR, Oksford və Kembric Universiteti Nəşrləri, Emerald, Wiley-Blackwell və s.) Azərbaycan Dillər Universitetinin nəzdində yerləşən Bakı Amerika Mərkəzində pulsuz olaraq mövcuddur.
- Əlavə məlumat üçün aşağıdakı e-mail ünvanı ilə əlaqə saxlaya bilərsiniz: ircdirector@adu.edu.az;
- Məxfiliyin qorunması və şəffaflığın təmin edilməsi baxımından göndərilmiş bütün referatlar və tədqiqat işləri təcrübəli tədqiqatçıların qiymətləndirilməsindən əvvəl kodlaşdırılacaq.

## Mənbələr

İştirakçılar üçün **AAA** aşağıdakıları təşkil edəcək:

- APA yazı üslubu və istinadları mövzusunda seminar
- Tədqiqat metodları mövzusunda seminar
- Tədqiqatçılar araşdırma mövzularını müəyyən etməyə müvafiq müzakirəyə yaxud digər məsələlərlə bağlı köməyə ehtiyac duyarsa Səbinə Hacızadə ilə əlaqə saxlaya bilər: sabinaramazanova1@gmail.com
- Əlavə məlumat üçün isə aşağıdakı email ünvanına məktub göndərə bilərsiniz: educonference@aaa.org.az

**Bakı Amerikan Mərkəzinin** iştirakçılar/tədqiqatçılar üçün aşağıdakı resursları mövcuddur:

- *EBSCO, JSTOR, Oksford və Kembric Universitetlərinin Nəşrləri, Emerald, Wiley-Blackwell və s.* vasitəsilə axtarış motorları istifadəsi üzrə Seminarlar (fərdi və qruplarla)
- Elektron jurnallarda tam mətnlərə pulsuz çıxış
- Əlavə məlumat üçün Aytac Misgərli ilə əlaqə saxlayın: 4413680/4410172 (daxili nömrə. 229). Zəhmət olmasa, zəng edərkən konfrans iştirakçısı olduğunuzu qeyd edin.

## Tədqiqatçılar üçün Tələblər

### I. Referatın Qəbulu üçün Kriteriya

*Hər iki referat və tam tədqiqat işləri APA üsuluna uyğun olmalıdır.*
***Uzunluğu:*** **Bir səhifə** (mak. 300 söz)
***Dil:*** Azərbaycanca / İngiliscə / Rusca
***Format və mövzu*:**

- Times New Roman şrifti, 12 ölçüsündə, cütaralıqlı
- Müəllif(lər)in adı, email ünvanı, tədqiqat başlığı və müəllifin təmsil etdiyi təşkilat
- Üç açar söz (referatın aşağısında yazılsın)
- Tədqiqat və milli təhsil strategiyasının əlaqəsi aydın ifadə olunsun
- Referat toxunduğu sahəyə innovativ yanaşmanı təsvir etsin

- Referat son müraciət tarixindən əvvəl təqdim olunsun
- Referat/təklif araşdırmanın məqsədini, metodologiya və mümkün nəticələrini aydın şəkildə təsvir etsin
- Minumum beş əsas istinad təmin olunsun

Zəhmət olmasa, APA qaydalarının tam təsviri üçün aşağıdakı linki nəzərdən keçirin.
**APA qaydaları:** APA Guidebook

***Əsas qiymətləndirmə kriteriyası:***
- Mətnin aydınlığı
- Tədqiqat mövzusunun əhəmiyyəti
- Elmi yanaşma
- Konfrans mövzusu ilə uyğunluğu

***Qəbul***: **Referatı** və **CV-nizi** aşağıda göstərilən email ünvanlarına **5 Yanvar 2017-ci il tarixindən** gec olmayaraq göndərin. Zəhmət olmasa, *"2017 Təhsil Konfransınının Referatı - Adınızı"* emailin mövzu hissəsinə daxil edin. Referatı (sabinaramazanova1@gmail.com email ünvanını CC-yə əlavə etməklə) educonference@aaa.org.az email ünvanına göndərin.

**II. Tamamlanmış tədqiqat layihəsi üçün kriteriya**

**Uzunluğu:** Maksimum 3000 söz (iş qrafiki və ədəbiyyat siyahısı daxil olmaqla)
**Dil:** Azərbaycanca / İngiliscə / Rusca

***Format və mövzu***:
- Times New Roman şrifti, 12 ölçüsündə, cütaralıqlı
- Müəllif(lər)in adı, email ünvanı, tədqiqat başlığı yaxud araşdırma və müəllifin təmsil etdiyi təşkilat və email ünvanı
- Üç açar söz

***Əsas qiymətləndirmə kriteriyası:***
- Tədqiqat metodologiyasının aydınlığı
- Tədqiqat mövzusunun əhəmiyyəti
- Konfrans mövzusu ilə uyğunluğu
- Elmi/obyektiv yanaşma
- Mətnin əsaslılığı və aydınlığı
- Təhsil strategiyasının prioritet istiqamətlərinə ünvanlanan araşdırma
- İnnovasiya
- Tövsiyyələrin uyğunluğu

***Qəbul***: Zəhmət olmasa, yekun tədqiqat işlərinizi emailin mövzu hissəsində *"Son Tədqiqat İşi - 2017 Təhsil Konfransı - Adınızı"* daxil etməklə (sabinaramazanova1@gmail.com email ünvanını CC-yə əlavə edin) educonference@aaa.org.az email ünvanına **15 Fevral 2017-ci il tarixindən** gec olmayaraq göndərin.

## <u>Əlaqə</u>

Konfransla əlaqədar istənilən sual yaxud təklifiniz olarsa educonference@aaa.org.az email ünvanı vasitəsilə Konfransın layihə meneceri ilə Səbinə Hacızadə ilə əlaqə saxlayın.